BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 1 (09); 1:2; 141. 45**

# İBN SİNANIN ARİSTOTEL MƏNTİQİNƏ GƏTİRDİYİ YENİLİYİ VƏ BUNUN İSLAM MÜTƏFƏKKİRLƏRİNƏ TƏSİRİ

**Ə.N.PAŞAYEVA**
***AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu***
***pashayeva.ph@mail.ru***

***"Məntiq, fəlsəfənin açarı və fəlsəfənin öyrənilməsi isə insan səadətinin açarıdır".***
***İbn Sina***

*İslam elmləri içərisində mühüm hesab edilən elmlərdən biri də "qədim məntiq" elmidir. Bu elmin əsası Aristotel tərəfindən qoyulsa da əsrlər keçdikdən sonra ibn Sina bunu təkmilləşdirərək islam elmlərinə daxil etmişdir. O, Aristotelin "Orqanon" əsərini nəinki təhlil etmiş, hətta yeni mövzular gətirərək fəsillər açmışdır. Bəzi fəlsəfə tarixçiləri iddia etmişlər ki, ibn Sina, Aristotel əsərlərinin təkrarçısı və onun davamçısıdır. Digər iddia isə, islam aləmində məntiq elminin əsasən Fəxrəddin Razi və Əfzələddin Xunci ilə əlaqələndirmişlər. Amma bu elmin tarixinə və mövzusuna nəzər saldıqda, biz bunun tam olaraq əksini görürük. İbn Sina, nə Aristotel əsərlərinin təkrarçısı və nə də onun davamçısı deyil, bəlkə "Orqanon" əsərinin pərakəndə olan mövzularını bir yerə toplamış, klassik məntiq qayda-qanunlarına əsasən şərq və qərb aləminə tanıtdırmışdır. Bütün bunları nəzərə alaraq məqalədə əsas məqsəd, İbn Sinanın qədim məntiq elminə gətirdiyi yenlikləri və bu yeniliklərin islam alimləri tərəfindən işlənməsi və yayılması mötəbər mənbələrə istinad etməklə təhlil olunmuşdur.*

**Açar sözlər:** Aristotel, İbn Sina, qədim məntiq, orqanon, kateqoriyalar, xəbər

***Giriş:*** İslam mədəniyyətinə daxil olan elmlərdən biri də "məntiq" elmidir. Bu elm, yunan mətnlərindən Hüneyin ibn İshaq (809-873 m.) tərəfindən ərəb dilinə tərcümə edilmişdir. Biz, Aristotel əsərlərini təhlil etdikdə bu mövzunun dərin tədqiqilə üzləşrik. Qeyd olunması zəruridir ki, Aristotel "logike"(Λογική) - məntiq adlı əsər yazmamış, onun əsərlərində əqli qayda-qanunlar və onlara aid olan məsələlər təhlil olunduğu üçün alimlər tərəfindən "məntiq" adlandırılmışdır. Əslində onun yazdığı kateqoriyalardır[1] ki, "Orqanon"[2] əsərinə daxil edilmişdir. Aristoteldən əvvəl yaşamış Zenun,

[1]. Latın dilində "Categoriae" adlanır. İslam fəlsəfəsində buna "məqulat" və bəzi tərcümələrdə (rus və Azərbaycan) "kateqoriya" deyilir. Nəzərə almaq lazımdır ki, yazıda Aristotel məntiqi yerinə Aristotel kateqoriyası işlənəcəkdir.

[2].Latın dilində Organun (Όργανον) və mənası "instrument" deməkdir.

Sufistilər, Sokrat və Platon düzgün düşüncə və fikir yürütmə qanunları barəsində müəyyən fikirlər söyləmişlər, amma elm və tarix baxımından Aristotel ilk filosofdur ki, təfəkkürün düzgün istiqaməti və bu istiqamətin düzgün nəticəsi barədə əsərlər yazıb və onun mahiyyətini açıqlamışdır.

Aristoteldən sonra, onun şagirdləri ilk olaraq onun altı əsərini[3] toplayaraq adını "Organon" qoymuşlar. Sonralar Aristotel əsərlərini şərh edən təfsirçilər onun iki əsərini[4] də buna əlavə etmişlər. Əsərin "Orqanon" adlanmasının əsas səbəbi də odur ki, Aristotel təhlillə bağlı olan məsələlri müəyyən bir metod və quruluş hesab edirdi, yəni məntiq nəzəri elmlərdə faydalı olmaqla yanaşı, həm də digər elmlərin düzgün öyrənilməsində vasitə hesab olunurdu.

Zaman keçdikcə bu mövzu islam aləmində, müsəlman mütəfəkkirləri arasında böyük nüfuz qazanmış, islam alimləri buna xüsusi maraq göstərərək onu daha da genişləndirmiş və ən üstün zirvəyə çatdırmışlar. Bu mütəfəkkirlər arasında ibn Sina xüsusilə fərqlənmişdir. İbn Sina tənha filosofdur ki, təkcə bu mövzunu təhlil etməmiş, həm də ona əlavələr və yeniliklər gətirməklə müxtəlif fəsillər açmışdır. Baxmayaraq ki, mövzunun kökləri Aristotel fəlsəfəsindən gəlir, amma İbn Sina tam olmayan bir mövzunu tamamilə təkmilləşdirmiş nəinki islam, hətta qərb alimlərinə təqdim etmişdir. Ibn Sinanın yazdığı bu dəyərli əsər (məntiq əsəri) qərb alimlərinin diqqətinə səbəb olmuş və onlar əsərlərində buna işarə etməkdən əlavə, həm də onu təhlil etmişlər.[5]

Fəlsəfə tarixində, ibn Sina Aristotelin davamçısı və onun əsərlərinin təkrarçısı kimi tanıdılır. İbn Sinanı Aristotelin davamçısı adlandırmaq, bu ən azı insafsızlıqdan əlavə, həm də çox böyük bir məlumatsızlıqdır. Əgər tədqiqatçı, bu iki mütəfəkkirin əsərlərini dərindən təhlil etsə heç vaxt bu fikrə gələ bilməz; yəni bu iki mütəfəkkirin nəzəriyyəsini tanıdıqdan və təhlil etdikdən sonra onun bu fikrə gəlməyi (ibn Sinanı Aristotelin davamçısı adlandırmaq) qeyri-mümükündür. Çünkü ibn Sinanın əsərlərində elə mövzular təhlil olunur ki, Aristotelin əsərlərində bunlara rast gəlmək mümkün deyil və bu mövzuların müəllifi məhz ibn Sinadır. İbn Sina tənha filosofdur ki, Aristotel üslubunu bir tərəfə qoyaraq yazdığı məntiq əsərində yeni elmi nəzəriyyələr və yerdəyişmələr irəli sürmüş və digər mütəfkkirlər də onun qoyduğu metodla irəli getmişlər. O, fəlsəfə tarixində fövqəladə düşüncə qüdrətinə malik olan və fikirlərinin möhkəmliyində seçilən bir filosof kimi tanınır. Heç bir islam mütəfəkkiri ilahiyyat, təbiət, qəribə[6] əqli və digər elmlərin tədqiqində və yayılmasında İbn Sina qədər xidmət etməmişdir.

Elə buna görə də burada əsas məqsəd, İbn Sinanın Aristotel əsərlərində təhlil olunan əqli məsələlərə istinad edərək gətirdiyi yenilikləri təhlil etməklə, məntiq elminin qaydalarını, düşüncə tərzinin formalaşmasında mühüm

---

[3].Categories (Κατηγορίαι), Interpretation (Περὶ Ἑρμηνείας), Analytica Priora( Ἀναλυτικὰ Πρότερα), Analytica Posteriora (Ἀναλυτικὰ Ὕστερα), Topica (Τοπικά), Sophistical (Σοφιστικοὶ Ἔλεγχοι).

[4].Rhetorica (Ρητορικής) "Xitab", Poetica (Ποιητικ ῆς"Şer".

[5].Yazının ünvanın və həcmin nəzərə alaraq bu barədə bəhs etmirik.

[6].Təbiətə xas olan daxili və sirli qüvvələrdən bəhs edən elm. Bu elmin digər adı "xəfiyyə"dir.

əhəmiyyət kəsb etməsini düzgün mənbələrə istinad etməklə təhlil etməkdir. İlk növbədə qeyd olunmalıdır ki, İbn Sina təkcə məntiq barədə deyil o, elmin bütün sahələrindən bəhs etmiş və onları məntiqin tələb etdiyi qayda-qnunlara əsasən sübuta yetirmişdir. Fikrimizi əsaslandırmaq üçün bu iki dahi filosofun məntiq nəzəriyyəsini təhlil etməliyik.[7]

**Mövzunun təhlili**

Qeyd olundu ki, İslam filosufları arasında İbn Sina ilk mütəfəkkirdir ki, məntiq elmi barədə ən dəyərli əsərlərini[8] yazmış və bunula da Aristotelin yazdığı "Orqanon" əsərinin təhil və şərh olunmasına özündən sonra gələn mütəfəkkirlərə yol açmaqla yanaşı, həm də yeni bir üslub bəxş etmişdir.

İbn Sina "İlahiyyatu əş-Şəfa"[9] kitabında (Sofistika hissəsində) Aristoteldən nəql edir: "Bizdən əvvəlki mütəfəkkirlər, "təhlil" (birinci analogiya)[10] fəslində cüzi qayda və qanunlardan başqa ətraflı bir şey irs qoymamışlar. Hər bir təhlilin üsulları, qayda-qanunları, onların hökmlərinin təhlili və çatışmamazlığı bizim səylərimiz nəticəsində əldə olunmuşdur. Əgər gələcəkdə bir şəxs onu öyrənsə, düzəlişlər aparsa və əgər hər hansı bir nöqsan tapsa, onda özünün elmi yeniliyini göstərməlidir.[11] İbn Sina davam edərək qeyd edir ki: bu müddətdən sonra Aristoteldən başqa bir nəfər bu elmə (məntiqə) bir şey əlavə etmişdirmi? Onun apardığı təhlillər (özündən əvvəlki filosoflarla müqayisədə) tam geniş, qanunauyğun və düzgündür (3, 113). İnkar olunası deyildir ki, Aristoteldən sonra bu elm barədə müxtəlif fikirlər söylənilmiş və mülahizələr irəli sürülmüş, amma tutarlı bir nəticəyə gəlinməmişdir. Amma İbn Sina məntiq elmi barədə əsərlər yazmış və özünün fəlsəfi və məntiqi nəzəriyyəsini dəllilərə əsasən sübuta yetirmişdir. Baxmayaraq ki, məşhur tarixçi İbn Xəldun[12] məntiqin təkmilləşməsi və yayılmasını Fəxrəddin Razi[13] və Əfzələddin Xunci[14] ilə əlaqələndirir, amma bunun üçün heç bir sübut gətirməmişdir ( , c. 2, 1024, 1028) Halbuki, İbn Sina Aristotelin müxtəlif hissələrə ayrılmış və pərakəndə olan "Orqanon" əsərinin mövzularını bir yerə toplamış, əlavələr və yeniliklər etməklə, həm də ona müxtəlif fəsillər açmışdır. Buradan aydın olur ki, bu mövzunu ilk dəfə ibn Sina təhlil etmişdir, nəinki Fəxri Razi və Əfzələddin Xunci. Bundan əlavə, İbn Sina "Şəfa" adlı kitabında kateqoriya[15] mövzusunu

---

[7].Məqalədə nəzərə alınan məsələlərdən biri də odur ki, burada bəzi terminlər olduğu kimi qeyd olunub. Ona görə ki, fəlsəfi və məntiqi terminlər hansı dildə olmağından aslı olmayaraq (qısa izahı verilməklə) dəyişilə bilməz və olduğu kimi də göstərilməlidir. Məsələn, əgər yazıda qəzaya, mutabiqə, təzəmmun, qiyas və s. kəlməsi işlənibsə həmin kəlmə barədə izah da verilmişdir. Bu cür kəlmələr xüsusi termin olduğu üçün adına görə deyil, mənaya əsasən təhlil olunur.

[8]."İlahiyyatu əş-Şəfa", "Ən-Nəcat", "Əl-İşarat və ət-Tənbihat".

[9]. Kitab bundan sonra "Şəfa" adlanacaq.

[10].Analytica Priora (birinci təhli, klassik məntiqdə buna "qiyas" deyilir.)

[11].Yəni əgər bizim dediklərimiz tədqiqatçını qane etməsə, onda öz yeni elmi nəzəriyyəsini gətirməlidir. Bu Aristotelin fikridir.

[12].Tarixçi, sosioloq, antropoloq, siyasətçi (1332-1406 m.)

[13].Fəqih, şərhçi, mütəkəllim və filosof (544-606 h.q.)

[14].Fəqih, məntiqşünas və qazi (590-646 h.q.)

[15].Təhlillər, (islam fəlsəfəsində buna "təhlilat" ( ) deyilir.

şərh etmiş və digər əsərlərində (Daneşnamə-ye Əlayi,[16] Ən-Nəcat və Məntiqu-əl Məşriqiin) məntiqə aid olan məsələləri sübutlar əsasında tədqiq etmişdir ( , 9, 11) .O, yeni üslubların əsasın qoymaqla yanaşı, həmdə bu məsələlərin necə təhlil olmasını və hətta onların həlli yollarını göstərmişdir və bütün bunlar islam mütəfəkkirlərinin əsərlərində açıq-aydın özünü göstərir. Bir çox mütəfəkkirlər məsələn, Söhrəvərdi (Hikmətu əl-İşraq, Təlvihat, Mutarihat), Təftəzani (Təhzib), Katib Qəzvini (Şəmsiyyə və Şərh-e Mutale), Ömər bin Səhlan Savi (Bəsair və Təbsire) kateqoriya mövzusunu təhlil edərkən ibn Sinanın "Şəfa" kitabına istinad edərək, məntiqlə bağlı olan düşüncələrini təhlil etdikdən sonra fəlsəfəyə daxil etmişlər. Fəxri Razi "Məbahisu əl-Məşriqiyyə" adlı kitabında "Məşşa" filosoflarının metoduna uyğun olaraq kateqoriya barəsində geniş bəhs etmişdir. Digər mühüm məsələ ondan ibarətdir ki, Əfzələddin Xunci "xəbər" mövzusunu bir neçə hissəyə ayırmışdır; bəzi xəbərlər bizim zehnimizlə, bəzisi təbiət aləmilə və digəri isə həqiqi xəbərlərdir ki, bunlar məntiq elmində əsas mövzulardan hesab olunaraq "qəzaya"[17] adlanır. Xunci, xəbərin bəsit və mürəkkəb hissələrə ayrılmasınında "Şəfa" kitabına istinad etmişdir (3, 9-11). Siracəddin Urməvi, Xunciyə istinad edərək xəbərin müxtəlif hissələrə ayrılmasını təhlil etmişdir. Hər halda, bir daha aydın olur ki, islam aləmində məntiq elminin banisi ibn Sinadır və onun gətirdiyi yeni qaydalar, sonralar nəinki islam, hətta qərb fəlsəfəsinə nüfuz etmiş və əsil tədqiq mənbəyinə çevrilmişdir. Çünki onun düşüncə və yeniliklərinin təsirindən yazılan dəyərli əsərlər bunu deməyə əsas verir.

**İbn Sina və qədim məntiq**

"Məntiq", ərəb kəlməsi olaraq lüğətdə "kəlam" və "danışıq" mənasındadır, amma mövzuda isə qanuni bir vasitə olaraq, səhvlərə yol vermədən düzgün düşüncə və fikir yürütmək deməkdir. İbn Sina "Əl-İşarat və ət-Tənbihat"[18] adlı əsərində məntiqi tərif edir: "Məntiq, qanuni bir vasitədir ki, hər hansı bir fikri nizamlayır və düzgün istiqamətə yönəldir" (4, 8-9).

Məntiq elminin mözusu "tərif" və "sübut"dan ibarətdir. Ümumiyyətlə, bütün elmlər iki cür təhlil olunur: əvvəlcə tərif, sonra isə təsdiq olunur; yəni əvvəlcə tərif olunur və bundan sonra dəlillər əsassında sübuta yetirilir. Daha dəqiq desək, məsələlər təhlil olunur və bundan sonra hökm dəlil olaraq gətirilir və bununla da məsələnin düzgün olub-olmamasına şübhə yeri qalmır. Bu elmin faydası, bizə düzgün tərif etməyi və tutarlı dəlillər gətirməklə düzgün nəticəyə gəlməyi öyrədir. İbn Sina, məntiq elmində iki yenilik etmişdir: birinci mövzuda və ikinci isə quruluşda. Onun təhlili əsas üç istiqamətdə aparılmışdır: a) bəzi hissələri xülasələşdirmək və ya tamami ilə çıxartmaq; b) mövzulardan bir hissəsinin yerini dəyişdirmək; d) əlavələr etmək və yeniliklər gətirimək (5, 19.)

---

[16].İbn Sina bu əsəri fars dilində yazmışdır.

[17]."Qəzaya" (xəbərlər), klassik məntiq elmində mühüm mövzulardan biridir. "qəzaya" ərəb dilində və cəm halındadır, tək halı isə "qəziyyə" (xəbər) və ingilis dilində isə "proposition" deməkdir.

[18].Bundan sonra bu əsər "İşarat" adlanacaq.

**Birincisi: bəzi hissələri xülasələşdirmək və ya tamamilə çıxartmaq**

Aristotel, mövcud aləmdə olan bütün varlıqları on dəstəyə ayırmış və onları "kateqoriya" adlandırmışdır. Onun fikrincə, kateqoriyalar bütün mövcudları əhatə edir və bunlar ibarətdir: cövhər, əlavə (izafə), kəmiyyət, keyfiyyət, məkan, zaman, vəziyyət, mülk, hərəkət (fel) və təsir (infial) ( , 2339) Nəsirəddin Tusi həm bu məsələyə toxunaraq yazır ki, Aristotel təbiətdə olan bütün mövcudları on hissəyə ayırmış və burada məntiqə aid olan məsələləri dəllillər (proofs) əsasında təhlil etmişdir. Sonralar bu əsər, "on kateqoriya"[19] adı ilə tanınmışdır (7, 34).

İbn Sina "Şəfa" kitabında bir fəsli kateqoriyalara həsr etmiş və əsasən cövhər[20] və ərəzdən[21] danışmışdır. O, bu kitabda təkidlə qeyd edir ki, kateqo-riylar məntiq elmində təhlil oluna bilməz və bunu məntiqə daxil etmək düzgün deyil. Çünkü kateqoriyaya daxil olan mövzular fəlsəfəyə aiddir və bunlar məna baxımından təhlil olunur, nəinki kəlmə. Kəlmə baxımından kateqoriya lüğət elmi daxilindədir, amma mövzunun təkcə lüğət baxımından təhlil olunması bu heç də mənanı tam əhatə etmir (3, 5-8). İbn Sinanın kateqoriyanı məntiqə daxil etməməsinin digər bir səbəbi də odur ki, onun nəzərində, məntiq elmi ümumi məfhumlar və onların qanuna uyğunluqlarından bəhs edir. Məfhumlar digər məfhumlara aid olmaqla dərk olunur və bu ancaq zehnə aiddir. Halbuki kateqoriyaların hamısı ilk düşüncə əsasında təhlil olunur. İlk düşüncə dedikdə zehndə olan məfhumlara işarədir; məfhum əvvəlcə düşünülür sonra tətbiq olunur. Elə buna görə də ibn Sina kateqoriya mövzusunu məntiqdən çıxararaq fəlsəfəyə daxil etmişdir. Mütəfəkkirlərdən Fəxri Razi, Təftəzani, Söhrəvərdi, Katib Qəzvini və başqaları bu məsələdə ibn Sinanın üslubunu əsas götürmüşlər. Burada ibn Sinanın digər işi kateqoriyalardan əlavə, beş mövzunu məntiq əsərindən kənarlaşdırmaq olmuşdur. Halbuki, bu mövzular "Orqanon" daxilində idi və bunlar aşağıdakılardan ibarətdir: Analitika, Topika, Sofistika, Ritorika və Poetika. O, əsərlərində (Daneşname-ye Əlayi, ən-Nəcat, əl-İşarat və ət-Tənbihat) ümumi və qısa olaraq təkcə "Analitika" və "Sofisrtika" barə-sində söhbət açmış "Ritorika", "Poetika" və "Topika"nı məntiq mövzulardan kənar hesab etmişdir. İslam məntiqşünasları da ibn Sinanın metoduna uyğun olaraq bu mövzuları ümumilikdə və xülasə şəkilində təhlil etmişlər (5, 19-21).

**İkincisi: mövzulardan bir hissəsinin yerini dəyişdirmək**

İbn Sina məntiq əsərində bir sıra mövzuların yerini dəyişdi. O, ilk olaraq mövzunu təsəvvür və təsdiqə ayırdı. "İşarat" adlı kitabının "Məntiq" hissəsində Analitkaya aid olan tərifi[22] "hədd"[23] və "rəsm"[24] adlandıraraq təsəvvür hissə-sində beş mövzudan (Analitika,Topika, Sofistika, Ritorika və Poetika) sonra

---

[19].İslam fəlsəfəsində buna "Məqulatu əl-aşr" ( ) deyilir.
[20].Substance
[21].Accident
[22].Qədim məntiqdə buna "muərrif" ( ), yəni tərif edilmiş deyilir.
[23].Definition
[24].Description

yerləşdiridi. Ona görə ki, “hədd” və “rəsm” bu beş mövzunun əsasında yaranıb və bunların məhsuludur. Məntiq mövzusunda “hədd” və “rəsm” zata bağlı olan bir tərifdir. Hər hası bir zat, hədd və rəsm əsasında tərif olunur; məsələn, insan danışan bir varlıq kimi tərif olunur. Burada “insan” və “danışan varlıq” iki hədd əsasındadır. Amma hədd və rəsm arasında da fərq mövcuddur və o, bundan ibarətdir ki, həddin tərifi xülasə, rəsmin tərifi isə genişdir. Bundan başqa, burada ibn Sinanın digər işi “əks”[25] mövzusunun yerini dəyişməsidir. Çünkü bu mövzu xəbərin kateqoriyalarından bəhs edir. “Təfsir”[26] mövzusu xəbər barəsində olduğu üçün o, “əks” mövzusunu “Topika” hissəsindən çıxararaq “Təfsir” hissəsinə daxil etdi (5, 22). “Əks”, müstəqil bir sübutdur ki, xəbərin (digər bir xəbərdən) nəticəsini bəyan edir; nəticə dedikdə, yəni mouzunu[27] məhmula[28] və məhmulu mouzu ilə əvəz edir və xəbərin düzgün olub olmamasını öz öhdəsinə götürür.

**Üçüncüsü: əlavələr etmək və yeniliklər gətirimək**

Yuxarıda qeyd olunan məsələlərdən başqa, ibn Sina məntiq elminə müxtəlif əlavələr etmiş və yeniliklər gətirmişdir. O, doqquz hissədən ibarət olan “Orqanon” əsərini təsəvvür və təsdiqə ayırdıqdan sonra, bu əsərin təsnifat və fəsillərini doqquz hissədən iki hissəyə endirmişdir (9, 51). Şeyxulrəis yazdığı “Məntiqu əl-Məşriqiin” adlı əsərində bu mövzunu açıq-aydın irəli çəkmişdir. O, yazır ki, “biz istəyirik göstərək ki, necə olur ki, bizə mənsub olan zehn və xəyalda mövcud olan əşyadan məlum olmayan əşyanı seyr edirik və ən əsası özümüzdə olan məlumatlar vasitəsilə digər məlumatları əldə edirik. Zehndə yaranan əşya təsəvvür vasitəsilə görünür və onların təsəvvürü iki hissədən ibarətdir: ya onların təsəvvürü hökm və təsdiqdən ayrıdır ya onların təsəvvürü hökm və təsdiqə bağlıdır” (1, 9). Sonralar məntiqşünaslar və filosoflar (Fəxri Razi,Təftəzani, Söhrəvərdi, Katibi və başqaları) bu nəzəriyyənin ardıcılı oımuş, kitablarında qeyd olunuan mözünuları məhz “Şəfa” və “Nəcat”əsərlərinə istinad edərək təhlil etmişlər.

Şeyxin digər və mühüm yeniliklərindən biri də kəlmənin qruluşundadır. O, “kəlmə” mövzusunu üç hissəyə ayırmaqla “Usulugiyadan”[29] əvvəldə yerləşdirmiş və bu üç qanuna uyğunluğu, yəni kəlmənin bu funksiyasını “dəlalət” adlandırmışdır. Dəlalət üç hissədən ibarətdir: “Mutabiq”[30], “Təzəmmun”[31] və

[25].Conversion

[26].Interpretation

[27].Subject (Bunu “mövzu” ilə eyniləşdirmək olmaz, bunlar ayrı-ayrı kateqoriyalardır. “Mouzu”, mövzunun əsasıdır, “mövzu” isə bu əsasa bağlıdır).

[28].Logical predicate

[29].Isagoge (E ἰσαγωγή) “Müqəddimə” və ya mövzuya daxil olmaq deməkdir (yəni məntiq elminin başlanğıcı). Qeyd etmək lazımdır ki, “Usulugiya”Aristotelin əsəri deyildir. Bu əsər, məşhur filosof Porfiryus (232-304 m.) tərəfindən yazılmış və “Organon” əsərinə əlavə edilmişdir. Bu, həm klassik məntiqdə və həm də islam fəlsəfəsində mühüm mövzulardan biri hesab olunaraq “Kulliyatu əl-xəms” ( ) adlanır. Kulliyatu əl-xəms beş hissədən ibarətdir: növ, cins, fəsl, ümumi ərəz və xüsusi ərəz, (ərəz-accident: hadisə, haldan-hala keçən, qeyri sabit).

[30].İdentical (mutabiq ( ) sözünün kökü “tebq” ( ) dən gəlir və mənası uyğunluq deməkdir.

[31].İmplication (əlavə etmək).

“İltizam”[32]. Şeyx, kəlmənin kateqoriyaya əlavə etməsi barədə yazır: “kəlmə və məna arasında xüsusi bir bağlılıq vardır, çünkü kəlmə mənanın vəziyyətinə təsir edir. Mütləq kəlmə (əlbəttdə, burada xüsusi bir lüğət nəzərdə tutulmur) məntiq təhlilçiləri üçün olduqca zəruri bir məsələdir” (4, 21). Elə buna görə də bir sıra kəlmələrin (məna baxımından) məntiq elminə əlavə edilməsi zəruridir. Nəzərə almaq lazımdır ki, kəlmə, məntiqə aid olan mövzu deyil, amma onun bura əlavə edilməsi və kəlmənin məntiq mövzusunda işlənməsi məsələlərin dərk olunmasında (xüsusilə zehnə aid olan məsələlərdə) olduqca zəruridir. Şeyx “dəlalətin” mənasını belə izah edir: kəlmə və məna arasında bağlılıq mövcuddur və kəlmə mənaya dəlalət edir; kəlmənin dəlalət etməsi də mənaya bağlıdır, yəni bir halda ki, kəlmə mənaya dəlalət edir, bununla da kəlmə həmin məna və onun hissələrinə aid olmuş olur və ya həmin məna ilə uzlaşır. Məsələn, əgər üçbucaqlı kəlməsini nəzərdə tutsaq, məlumdur ki, bu kəlmə üç dairəni əhatə edəcək. Şeyx, bu növ kəlməyə (yəni mənaya dəlalət edən kəlməyə) “mutabiq” deyir (4, 21).

Bəzən kəlmə, mənaya əlavə olaraq dəlalət edir; dəlalət olunmuşun mənası[33] kəlmənin uyğun olan mənasından bir hissəsinə aid olmuş olur. Məsələn, üçbucaqlı sözü, həmin üç bucaqlının özünə deyil, formasına aid olmuş olsun. Bir halda ki, üçbucaqlı sözü formaya dəlalət edir, burada dəlalətdən məqsəd o deyildir ki, formanın ünvanı və adı olsun, bəlkə üçbucaqlı mənanın ünvanıdır ki, forma o mənanın bir hissəsini təşkil edir; yəni forma əlavə bir kəlmədir ki, üçbucaqlıya dəlalət edir. Şeyx dəlalətin bu növünə “təzəmmum” deyir.

Dəlalətin digər mənası ondan ibarətdir ki, bəzən kəlmə təbii və zəruri olaraq mənaya dəlalət edir; yəni kəlmə, elə bir mənaya dəlalət etsin ki, həmin məna, kəlmənin mövzusunun mənasından kənar başqa bir mövzuya aid olsun. Nəzərə almaq lazımdır ki, burada məna əsasdır, amma bu o, demək deyildir ki, həmin məna kəlməyə uyğun olan mənanın bir hssəsini təşkil etsin, bəlkə onunula birlikdə olmuş olsun (2, 28). Məsələn, tavan kəlməsi divara və insan kəlməsi isə sənətə dəlalət edir. Şeyx, dəlalət mövzusunda mühüm bir məsələni qeyd edir və o, bundan ibarətdir ki, əgər kəlmədə dəlalət etmək istəyi (iradəsi) olmasa, heç bir dəlalətdən söhbət gedə bilməz. Ona görə ki, bir kəlmənin dəlalət etməsindən bizim məqsədimiz odur ki, o kəlmə iradə əsasında dəlalət etsin, nəinki kəlmə özü üçün dəlalətdən bir payı olsun. Şeyx dəlalətin bu növünü “iltizam” adlandırır (1, 11).

İbn Sinanın gətirdiyi digər yenilik isə “qəzaya” mövzusuna aiddir. Şeyx, qəzaya mövzusunu xüsusi qaydalara əsasən müxtəlif hissələrə ayırmış, daha da genişləndirmişdir. O, xəbərlər arasında olan müxtəlif quruluşun və bağlılığın olmasını irəli sürmüş və bunu dəlillər əsasında sübuta yetirmişdir. Qeyd olunmalıdır ki, məntiq elmində xəbər (qəziyyə) iki hissədən ibarətdir: tam

[32].Contingency (zərurilik).
[33].Buna “mədlul” deyilir, yəni dəlalət olunmuş.

xəbər və tam olmayan xəbər; tam xəbər, o xəbərə deyilir ki, burada xəbər doğru olsun: məsələn, "təbiət, hadisələrdən ibarətdir". Tam olmayan xəbər isə məsələn, "təbiət hadisələrdən ibarət deyil". Ümumiyyətlə, bütün xəbərlər quruluşuna görə iki hissəyə ayırılır: "Həmliyyə"[34] və "Şərtiyyə"[35].

"Həmliyyə", ərəb kəlməsi olan "həml" sözündən götürülmüş və mənası "yüklənmək" deməkdir. Amma, mövzuda işlənmə mənası isə, "bir şeyi sübut etmək üçün başqa bir şeyə və ya başqa bir şeydən bir şeyi inkar etmək üçün hökm[36] olunur. Məsələn, "hava günəşlidir"; burada "günəşli" kəlməsi havaya "həml" olunub (yəni yüklənib). Digər bir misal, "musiqi ruhun qidasıdır" və əksinə olaraq "musiqi runuh qidası deyil". Burada, musiqinin ruhun qidası olmağı və ruhun qidası olmamağına hökm olunur". Bu xəbər, (həmliyyə xəbəri) üç hissədən ibarətdir: mouzu (musiqi), məhmul (ruhun qidası, yəni o, şey ki, mouzuya "həml" olunur və ya yüklənir) və "hökm" (mouzu və məhmul arasında olan əlaqə) adlanır. Burada, "ruhun qidasıdır" kəlməsi, "musiqi" ilə əlaqə və ya bağlılıq yaradır.

Amma "Şərtiyyə" xəbəri isə adından göründüyü kimi, burada şərt mühümdür; yəni xəbər arasında digər bir xəbərə sübut və inkar üçün hökm olunur. Məsələn, "əgər hava günəşli olsa, onda dağa gedəcəyik", və ya bu xəbərin inkarı: "əgər hava günəşli olmasa onda dağa getməyəcəyik". Ola bilər ki, hava günəşli olmasın, amma dağa getmiş olaq. və s... göründüyü kimi, birinci misalda xəbərin sübutuna və ikinci misalda isə xəbərin inkarına hökm olunur. Şərtiyyə xəbəri də üç hissədən ibarətdir: xəbər (hava günəşli olsa), hökm (dağa gedəcəyik), əlaqə[37] (iki xəbər arasında olan şərti bağlılıq). Şeyx, bu iki xəbəri (həmliyyə və şərtiyyə) də müxtəlif hissələrə ayırmış, onlar üçün yeni fəsillər açmış və bütün bunları kitablraında geniş tədqiq etmişdir.

İbn Sinanın gətirdiyi digər mühum yenilik "qiyas"[38] barəsindədir. Qiyas, o sübuta deyilir ki, əgər fərz olunmuş iki və bir neçə fikir düzgün hesab olunursa və bunlardan (fərz olunmuş xəbərdən) məntiqi bir nəticə əldə olunursa, bu nəticə dəlil olaraq qəbul olunursa belə sübuta "qiyas" deyilir. Amma, əgər göstərilən məntiqi nəticəni qəbul etməsək, onda həmin xəbərdə ziddiyyət yaranacaq. Qiyas, məntiqə əsaslanan iki xəbərdən və bir nəticədən ibarət olan məntiqi bir sübutdur. Əgər biz istəsək hər hansı bir xəbərin düzgün olub olmamasına əmin olaq, bu halda qiyasa əsasən o, xəbəri təhlil edib nəticə alırıq. Məsələn, spirtli içkinin tibbi faydasına əmin olmaq üçün onu təhlil edirik və deyirik ki, "spirtli içki mikrop öldürücüdür" (birinci xəbər), "hər mikrop öldürücü orqanizm üçün faydalıdır" (ikinci xəbər) "bəs onda, spirtli içki faydalıdır"(nəticə). Bu nəticənin məntiq baxımından qəbul olmaması qeyri-mümkündür, əgər qəbul olunmasa onda ziddiyyət yaranacaq.

---

[34].Act of affirmation
[35].Conditional
[36].Judgement
[37].Condational relation
[38].Syllogism

Şeyx qiyası iki hisəyə ayırmışdır: iqtərani[39] və istisnayi[40]. "İqtərani qiyas" o, qiyasa deyilir ki, onun nəticəsinin və inkarının əsası müqəddimədə olmasın və ancaq nəticədə göstərilsin. Məsələn, biz istəyirik ki, cismin dəyişən və ya haldan-hala keçməsini dəlil (iqtərani qiyas) vasitəsilə sübuta yetirək: "Hər cism mürəkkəbdir", "hər mürəkkəb dəyişəndir", "bəs onda cism dəyişəndir".

Amma bundan fərqli olaraq "istisnayi qiyas"da nəticə və inkar müqəddimədə göstərilməlidir, yəni bu təhlildə düzgün və səhv nəticənin olması mümkündür. Adından göründüyü kimi, burada istisna xəbərə şamil olduğu üçün bu qayda "istisnayi qiyas" adlanır. Məsələn, "əgər maye spirt olsa, onda göynədicidir", "amma maye göynədici deyil", "bəs onda bu male spirt deyil". Misaldan göründüyü kimi mayenin göynədici olmaması istisna olunaraq digər bir mayeyə şamil olunur.

Qeyd olunmalıdır ki, "iqtərani qiyas" qaydaya əsasən iki növə bölünür: "iqtərani həmli" və "iqtərani şərti". Aristotel "Orqanon" kitabının 44-cü hissəsində şərti qiyas barədə vədd verir, amma bu barədə bəhs etməmişdir. Həmçinin Farabi "Ousat" kitabında istisnayi qiyasdan söhbət açmış və onu "şərti qiyas" adlandırmışdır. Qiyasın iqtərani şərti növü ibn Sinanın yeniliyidir. O, qiyasın bu növünü bəyan etmiş və fikrini sübut etmək üçün yazır ki, Aristotel kateqoriyasında iqtərani şərti qiyas təhlil olmamışdır ( , 51). Qeyd olunduğu kimi Şeyx, qiyası iqtərani və istisnayi hissəyə ayırır və iqtərani qiyası isə iki növə: həmliyyə və şərtiyyəyə bölür. Bundan sonra qiyasın iqtərani şərti növünü səkkiz hissəyə ayıraraq ayrı-ayrılıqda "Şəfa" və "İşarat" kitablarında təhlil etmişdir.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, məntiq elminin təkmilləşməsi və yayılması məhz ibn Sina ilə bağlıdır. Ondan sonra gələn mütəfəkkirlər bu elmə heç bir mövzunu və qaydanı əlavə etməmişlər. Bunların əsas işi, ancaq bu elmə (məntiq elminə) gətirilən yenilikləri göstərmək və bu yeniliklər üzərində təhlillər aparmaq olub. Bu bir daha sübut edir ki, islam aləmində məntiq elmi ibn Sinanın yeni nəzəriyyəsi ilə başlamış və onun tətbiq etdiyi qayda-qanunlar əsasında təhlil olunub və olunmaqdadır.

**ƏDƏBİYYAT**

.

[39].Categorical syllogism
[40].Exceptive syllogism

.Aristotle works. Translated under the editorship of W. D. Ross. Categories, translated by E. M. Ediggle.

## НОВИЗНА ПРИВНЕСЕННАЯ ИБН СИНОЙ В АРИСТОТЕЛЕВСКУЮ ЛОГИКУ И ЕЕ ВЛИЯНИЕ НА МУСУЛЬМАНСКИХ МЫСЛИТЕЛЕЙ

**А.Н.ПАШАЕВА**

**РЕЗЮМЕ**

Одной из самых главных разделов в исламских науках является «классическая логика». Несмотря на то, что основы этой науки были положены еще Аристотелем, тем не менее спустя века их усовершенствовал Ибн Сина и ввел в разряд исламских наук. Он не только проанализировал аристотелевский «Органон», но и привнес в него новые разделы и темы. Некоторые исследователи философии считают, что Ибн Сина, в основном, был пересказателем и последователем Аристотеля. С другой стороны некоторые считают, что основы логики в мусульманском мире были заложены Фахратдином Рази и Афзалетдином Хунджи. Однако эти утверждения на самом деле не соответствуют действительности. Ибн Сина не был лишь последователем и пересказателем учения Аристотеля. Возможно, он собрал в единую книгу разрозненные части Органона на основе логических закономерностей и ознакомил с этим трудом ученых Востока и Запада. В связи с этим, целью данной статьи является раскрытие сущности новизны, который привнес Ибн Сина в учение Аристотеля, а также последующее влияние его трудов на развитие мусульманской мысли.

**Ключевые слова*:*** Аристотель, Ибн Сина, классическая логика, Органон, категории, сообщения.

## IBN SINA’S INNOVATION IN ARISTOTLE'S LOGIC AND ITS INFLUENCE ON ISLAMIC THINKERS

**A.N.PASHAYEVA**

**SUMMARY**

The paper discloses Ibn Sina’s novel introductions to Aristotle’s science and their subsequent impacts on Islamis thinking. “Classical logics” is considered one of the most important scientific divisions of Islamic sciences. Although this science was founded by Aristotle, Ibn Sina improved it and included it into Islamic sciences. He not only analyzed Aristotle’s "Organon", but also added new themes and chapters to it. Some historians claim that Ibn Sina was Aristotle’s follower. Others claim that founders of the logic of Islamic science were Fakhr al-Din Razi and Afzaladdin Khunji.

Ibn Sina was not Aristotle’s follower, maybe he collected the issues in “Organon” and introduced it to Western and Eastern scientists.

**Key words:** Aristotle, Avicenna, old logic, Organon, categories, proposition